

*Xutra RAMAZAN*

## DOĞMALIQ

Yurdumu, yuvamı, bəzi quşlartək,
İqlim dəyişdikcə dəyişməmişəm.
Qoca qartal kimi zirvə seçərək
Adına əbədi Vətən demişəm.

Mən dağlar oğluyam, dağ vüqarım var,
İradəm poladdır - sınar əyilməz.
Sevda yolçusuyam, öz qərarım var,
Bu yolda sürətim səngiyə bilməz.

Özgənin vədinə uymaram bir an,
Elimin sözünə sadiqəm yenə.
Bir qurtum içmərəm yad bulağından,
Öz sısqa çeşməm də şirindir mənə.

Anamın laylalı bal dilimizə
Əcnəbi haramı qatanlar azmı?
Dilimdən düşərsə xal dilimizə,
Ana da, Vətən də məni danmazmı?

Könlüm cənnətməkan, ömürsə bahar,
Versəm yad əlinə, solar çiçəyim,
Neynirəm özgəni, yığışsın dostlar,
Tər çiçək ətirli nəğmələr deyim.

## NƏĞMƏKAR ÜRƏYİM

Sinəmdə ürək deyil,
O bir yaralı quşdu.
Həsrətinlə çırpınıb,
Köksümü yardı uçdu.

O mənim quş ürəyim,
Qana düşmüş ürəyim.
Qonub könül bağına,
Oxuyur yana - yana:

Bir sevdalı ürəyəm,
Sənə bağlı diləyəm,
Dərd vermə, sına billəm,
Büllur kimi kövrəyəm.

Sevgilim, bu ah-aman,
Sanma quş naləsidir,
Atəşinlə qovrulan
Ürəyimin səsidir.

Sevgi nəğməsi həzin -
Həyatın özü kimi.
Qəbimiz qoşa yansın -
Bir odun kimi közü kimi.

## DAĞLAR KİMİYƏM

Tale yolçusuyam, ömür yarıdı,
Qismətini gəzən səyyar kimiyəm.
Bilmirəm nə qalıb mənzil başına,
Gedirəm, sürətli qatar kimiyəm.

Altmışı haqlayıb ötsə də yaşım,
Neçə yol tufana düşsə də başım,
Həyat eşqi olub ömür sirdaşım,
Qəbimlə, ruhumla bahar kimiyəm.

Hələ nə yazmışam, yaratmışam mən -
Hələ çox əsərlər görəcək Vətən.
Min inci düzəcək qələmim sözdən,
Deməyin sənətdə nübar kimiyəm.

Bir insan üzündə kədər görəndə,
Bir insan səsində qəhər görəndə,

Kövrəlib uşağa dönürəm mən də --
El dərdini çəkən qəmxar kimiyəm.

Xutra Ramazanam, haqq soraqlıyam,
Vətənə bağlıyam, elə bağlıyam.
Yurdum Balakəndi, avar oğluyam,
Vüqarımla bizim dağlar kimiyəm.

## İNSANI QOCALIQ HAQLAYANDA

Cavalıq şövqüylə yansa da ürək,
İnsanı qocalıq yaman haqlarmış.
Könül gülzarına xəzan düşəndə
Bahar güllərinin solmağı varmış.

İxtiyar çağının çoxmuş möhnətiŞ,
Tükənərmiş canın heyi, taqəti;
Dil sözü tutmazmış, qulaq söhbəti,
Gözlər odu verib, qoru saxlarmış.

Niskili çox imiş ahıl payın da,
Qəm şahlıq edərmiş can sarayında.
Qalsa da min azar-bezar hayında,
Ürəkdə arzular cavanlaşarmış.

Fikir dolaşdıqca belədən - belə,
Uzaq xatirələr gələrmiş dilə.
Aynalı gözündə min sual ilə
İtib gedənləri hey soraqlarmış.

Ələndikcə yelə verdiyin illər,
Qayıdıb halını pərişan edər.
Gözə kölgə salan günah əməllər,
Qəsdinə dayanıb sinə dağlarmış.

Xoş sözə, tərifə, ünı tamarzı,
Aman - güman yeri şükür namazı,
Ömürdən nə qalıb, ona da razı, --
Deyib Yaradana ülfət bağlarmış.

## BİR ÇAY DƏMLƏ, ƏZİZİM

Bir çay dəmlə, əzizim, bir çay dəmlə,
Əylənib göz-gözə dərdləşək bir az.
Kəsək haqq-salamı ələmlə, qəmlə,
Qəlbimdən keçəni ürəyinə yaz.

Bu axşam yamanca düşüb könlümə
Əlinin ətriylə dəmlədiyin çay.
Sən canım, gileydən, güzardan demə,
Şirin gülüşünlə üzümə nur yay.
Oturaq üz-üzə, baxaq göz-gözə,
Uçsun xəyalımız qanadlı quştək,
Xoş anlar yaşadaq bir-birimizə,
Yeni bir həvəslə döyünsün ürək.

Bir çay dəmlə gətir, içək doyunca,
İncidən dilini şəkər-qənd elə.
Sözümüz uzansın süfrə boyunca,
Olub-keçənləri gətirək dilə:
Birgə aşdığımız dumanlı dağlar,
Qoşa gəzdiyimiz çiçəkli bağlar,
O qayğılı illər, qayğısız illər,
Sevdalı günlərə açılan səhər
Keçsin gözümüzdən sinema kimi,
Xəyal çəksin məni, kövrəltsin səni.

Bir çay dəmlə, gülüm, əlindən içim,
Bizə qalmayıb ki, dünyanın dərdi.
Demirəm ötəri hisslərdən keçim -
Duyaraq yaşayan nə bəxtəvərdi.
Üzümüzə gələn ömrün payızı
Soldurmasın bizi çiçəklər kimi.
Düşsün ruhumuza gənclik havası -
Hələ biz həyatda nə görmüşük ki...
Yel atına kimin qaçan illərin
Ardınca baxmayaq pərişan gözlə.
Eşqdən süd əmən arzular şirin,
Uzadaq ömrünü əməlimizlə.
Bizi çox yormasın ev qayğıları:
Evin kəm - kəsiri bitməz, tükənməz.
Qızıldan ols ada onun divarı
Bir "can" kəlməsini edərmi əvəz?

Bir çay dəmlə, gülüm, sən bir çay dəmlə,
Kim nə deyir-desin, yoxdur çayından.
Mənsə surətini çəkim qələmlə,
Çayımız qoy şirin olsun hər zaman,
Bir çay dəmlə... Bir çay dəmlə...

***Balakən***